## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Meliorasiya və su təsərrüfatı sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 23 fevral tarixli 372 nömrəli Fərmanının 3.1-ci bəndinin icrası məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırılmış "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi" və "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin strukturu" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 17 iyun 2006-cı il
№ 149

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2006-cı il 17 iyun tarixli 149 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin

## N İ Z A M N A M Ə S İ [1]

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti (bundan sonra — Cəmiyyət) "Meliorasiya və su təsərrüfatı sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 23 fevral tarixli, 372 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyinin əsasında yaradılmışdır. *Cəmiyyət həmin fərmana və "Meliorasiya və su təsərrüfatı sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 23 fevral tarixli 372 nömrəli Fərmanında dəyişikliklər edilməsi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin*

*təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 952 nömrəli Fərmanına uyğun fəaliyyət göstərir.*[2]

1.2. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur.

*1.3. Cəmiyyət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları və bu Nizamnaməni rəhbər tutur.*[3]

*1.3-1. Cəmiyyətin aparatı, idarə, nümayəndəlik və filialları, habelə törəmə cəmiyyətləri Cəmiyyətin strukturunu təşkil edir.*[4]

1.4. Cəmiyyətin rəsmi adı aşağıdakı kimidir:

tam halda — Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti;

qısaldılmış halda — "Azmelsutəsərrüfat" ASC.

1.5. Cəmiyyətin hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ. 1000, Ü. Hacıbəyov küçəsi, 40, Hökumət evi.

## 2. Cəmiyyətin hüquqi statusu

2.1. Cəmiyyət hüquqi şəxsdir, müstəqil balansa, xəzinə və bank hesablarına malikdir.

2.2. Cəmiyyətin ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlaka cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir.

2.3. Cəmiyyət üzərində Azərbaycan Respublikasının Dövlət gerbi təsvir edilmiş və Cəmiyyətin adı göstərilmiş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

2.4. Cəmiyyətin səhmdarı Cəmiyyətin öhdəlikləri üçün cavabdeh deyildir və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün ona mənsub səhmlərin dəyəri həddində risk daşıyır.

## 3. Cəmiyyətin məqsəd, vəzifə və funksiyaları

3.1. Cəmiyyətin əsas məqsədi meliorasiya və su təsərrüfatı sahəsində dövlət xidmətləri göstərmək, torpaqların su təminatını həyata keçirmək, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını təşkil etmək, bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirməkdən ibarətdir.

3.2. Cəmiyyət aşağıdakı vəzifələri yerinə yetirir:

3.2.1. öz səlahiyyətləri daxilində su istehlakçılarını su ilə təmin etmək;

3.2.2. yerüstü su obyektlərinin istifadəsini, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin (Sudan İstifadəedənlər Birliklərinin istifadəsində olan sistemlər istisna olmaqla) istismarını, mühafizəsini və suvarılan torpaqların meliorativ vəziyyəti üzərində nəzarəti həyata keçirmək;

3.2.3. su obyektlərindən götürülən suları müəyyən olunmuş qaydada bölüşdürmək və onlardan istifadəyə nəzarət edilməsini təmin etmək;

3.2.4. torpaqların meliorativ vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə dövlət meliorasiya xidmətini inkişaf etdirmək;

3.2.5. meliorasiya və su təsərrüfatı sahəsində regional proqramların həyata keçirilməsini təmin etmək;

3.2.6. meliorasiya və su təsərrüfatı sahəsinin sosial-iqtisadi inkişafının əsas istiqamətlərini müəyyənləşdirmək və bu istiqamətlərə dair proqnoz və layihələrin, standart, norma və qaydaların hazırlanmasında iştirak etmək;

3.2.7. meliorasiya və su təsərrüfatının istehsal bazasını gücləndirmək, ondan səmərəli və məqsədyönlü istifadə olunmasını təmin etmək və *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətləri* maddi-texniki ehtiyatlarla təchiz etmək;[5]

3.2.8. dövlət büdcəsindən, xidmətlər və digər mənbələrdən daxil olan vəsaitlər hesabına görülən əsaslı tikintinin sifarişçisi, podratçısı, istismar tədbirlərinin icraçısı kimi çıxış etmək;

3.2.9. Sudan İstifadəedənlər Birliklərinin fəaliyyətinə nəzarəti qanunvericiliyə uyğun olaraq öz səlahiyyətləri daxilində həyata keçirmək;

3.2.10. su təchizatına yönəldilən xərclərin qismən ödənilməsini təmin etmək məqsədi ilə mövcud qanunvericiliyə uyğun olaraq, sudan pullu istifadəni təmin etmək;

3.2.11. yerüstü su obyektlərinin istifadəsi, mühafizəsi və suların zərərli təsirinin qarşısının alınması üzrə təklifləri və yerüstü su obyektlərinin monitorinq məlumatlarını aidiyyəti dövlət orqanlarına təqdim etmək;

3.2.12. səlahiyyətləri daxilində müvafiq beynəlxalq öhdəliklərin həyata keçirilməsini təmin etmək;

3.2.13. Azərbaycan Respublikasının su qanunvericiliyinə uyğun olaraq su münasibətlərinin tənzimlənməsi sahəsində ortaya çıxan məsələləri öz səlahiyyətləri daxilində həll etmək;

3.2.14. dövlət mülkiyyətində olan su obyektləri üzrə xüsusi suburaxma, çaylardan sel və daşqın sularının axıdılma və su anbarının doldurulub boşaldılma rejimlərini müəyyən etmək və həyata keçirmək;

3.2.15. dövlət mülkiyyətində olan meliorasiya və su təsərrüfatı obyektlərinin istismarı zamanı, eləcə də yeni tikiləcək belə obyektlərin layihələrində təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsini təmin etmək;

3.2.16. suların zərərli təsirinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlər işləyib həyata keçirmək, sahilqoruyucu obyektlərin istismarını təşkil etmək;

3.2.17. su obyektlərinin su mühafizə zonalarını və sahil mühafizə zolaqlarının ölçülərini, sərhədlərini və istifadəsini müvafiq dövlət orqanları ilə razılaşdırmaqla müəyyən etmək və təsdiq olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etmək;

3.2.18. meliorasiya və su təsərrüfatı obyektləri boyunca qoruyucu meşə zolaqlarının salınmasını, onların saxlanılmasını və qorunmasını təmin etmək;

3.2.19. müasir elm, texnika və mütərəqqi texnologiyalar əsasında sahənin elmi və sosial-iqtisadi inkişafını təmin etmək;

3.2.20. hüquqi və fiziki şəxslər tərəfindən sudan istifadə qaydalarına və normalarına əməl olunmasına səlahiyyətləri daxilində nəzarət etmək, bu normaları və qaydaları pozanlara qarşı qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirlər görmək;

3.2.21. qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

3.3. Cəmiyyət qarşısında duran vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

3.3.1. meliorasiya və su təsərrüfatı sahəsində ümumi tədbirləri və əsas istiqamətləri müəyyən edir;

3.3.2. meliorasiya və su təsərrüfatı sahəsində istismar, təmir-bərpa, əsaslı tikinti, yenidənqurma işlərinin aparılmasını təmin edir;

3.3.3. qanunvericiliklə müəyyən edilmiş qaydada suların dövlət uçotunu və dövlət su kadastrını öz səlahiyyətləri daxilində aparır;

3.3.4. suvarılan və meliorasiya olunmuş torpaqların uçotunu təşkil edir və monitorinqini aparır;

3.3.5. müəyyən edilmiş qaydada hidrotexniki qurğuların dövlət reyestrini öz səlahiyyətləri daxilində aparır;

3.3.6. səlahiyyətləri daxilində respublika üzrə, hövzə və inzibati-ərazi vahidləri üzrə su təsərrüfatı balanslarını hazırlayır;

3.3.7. yerüstü su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi baş sxemini, hövzə və ərazi sxemlərini müvafiq dövlət orqanları ilə birlikdə hazırlayır;

3.3.8. qanunvericiliyə uyğun olaraq səlahiyyətlərinə aid məsələlərə dair tariflərin formalaşdırılmasında iştirak edir, bu sahədə dövlət tərəfindən tənzimlənən su tarifləri barədə təkliflər verir və bununla bağlı səlahiyyətləri daxilində zəruri tədbirlər görür;

3.3.9. Cəmiyyətin sərəncamında olan vəsaitlərdən təyinatı üzrə istifadə edilməsini təmin edir;

3.3.10. dövlət büdcəsi, kreditlər, qrantlar, texniki yardımlar, xidmətlər və digər mənbələr hesabına Cəmiyyətin sərəncamına daxil olan vəsaitlərdən təyinatı üzrə istifadə edilməsini, müvafiq investisiya layihələri üzrə müsabiqə sənədlərinin tərtibini, malların (işlərin və xidmətlərin) satın alınması üçün qanunvericiliyə uyğun olaraq müsabiqələrin keçirilməsini təşkil edir;

3.3.11. meliorasiya və su təsərrüfatı sahəsində dövlət xidmətlərinin göstərilməsi, torpaqların su təminatının həyata keçirilməsi, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarı ilə bağlı büdcə vəsaitinə tələbatı müəyyənləşdirir və aidiyyəti üzrə təqdim edilməsini təşkil edir;

3.3.12. meliorasiya və su təsərrüfatı sahəsinə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb olunmasının təşkilində iştirak edir və bu sahədə lazımi iş aparır;

3.3.13. əsaslı vəsait qoyuluşundan səmərəli istifadə olunmasını, tikilən və yenidən qurulan obyektlərin, istehsal güclərinin və əsas fondların vaxtında istifadəyə verilməsini təmin edir;

3.3.14. Sudan İstifadəedənlər Birlikləri, ayrı-ayrı idarə, müəssisə və təşkilatlar, ailə kəndli təsərrüfatları, vətəndaşlar, digər su istifadəçiləri ilə müqavilələr əsasında

meliorasiya və su təsərrüfatı sistemlərinə və qurğularına texniki-servis xidmətinin göstərilməsini təmin edir, bu məqsədlə yerlərdə servis təşkilatlarını lazımi avadanlıq, maşın-mexanizmlər və ixtisaslı mühəndis-texniki kadrlarla təmin edir;

3.3.15. mühasibat uçotunu təşkil edir, *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlərin* rüblük və illik hesabatlarına baxır. Qanunvericiliklə müəyyən olunmuş qaydada illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tərtib edir;[6]

3.3.16. meliorasiya və su təsərrüfatı sahəsi üzrə kadrların hazırlanması, onların ixtisaslarının artırılması istiqamətində müvafiq tədbirlər görür;

3.3.17. işçilərin sosial-məişət və əmək şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası qaydalarına riayət edilməsini təmin edir;

3.3.18. vətəndaşların təklif, ərizə və şikayətlərinə baxılmasını və onların qəbulunu təmin edir, daxil olmuş müraciətlərə vaxtında cavab verir;

3.3.19. Cəmiyyətin səfərbərliyə hazırlığını təmin edir, *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlərin* səfərbərliyə hazırlıq üzrə fəaliyyətini əlaqələndirir;

3.3.20. Cəmiyyətin fəaliyyəti nəticəsində yaranmış arxiv sənədlərinin müəyyən edilmiş qaydada komplektləşdirilməsini, saxlanmasını və uçotunu təmin edir;

3.3.21. meliorasiya və irriqasiya sistemlərinin istismarı və qoruyucu meşə əkinlərinin saxlanması qaydalarının yerinə yetirilməsini təmin edir;

3.3.22. Cəmiyyətin saxlanması və ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılan məqsədyönlü vəsaitin sifarişçisi funksiyalarını həyata keçirir;

3.3.23. sərhəd su obyektlərindən istifadəni, meliorasiya və irriqasiya sistemlərinin dövlətlərarası birgə istismarını təmin edir;

3.3.24. meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi üzrə sifarişçi funksiyalarını həyata keçirir~~, öz səlahiyyətləri daxilində layihələrin dövlət ekspertizasını aparır və təsdiq edir~~;[7]

3.3.25. su ehtiyatlarından istifadə edilməsi ilə bağlı yeni müəssisələrin tikilməsi və mövcud müəssisələrin yenidən qurulmasını layihələndirməsi zamanı su ehtiyatlarının olması barədə rəy verir, su ehtiyatlarından istifadə edən bütün obyektlər üzrə yerayırma və istismara qəbul komissiyalarının işində iştirak edir;

3.3.26. səlahiyyətləri daxilində Azərbaycan Respublikasını beynəlxalq su təşkilatlarında təmsil edir və su məsələlərinə dair keçirilən beynəlxalq tədbirlərdə iştirak edir, beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, meliorasiya və su təsərrüfatı sahəsində xarici dövlətlər və təşkilatlarla iqtisadi, istehsalat və elmi-texniki əlaqələr yaradır;

3.3.27. meliorasiya və irriqasiya sahəsində tövsiyə xarakterli metodiki sənədlər hazırlayır və onları təsdiq edir;

3.3.28. su istifadəçilərindən sudan istifadənin vəziyyəti barədə lazımi məlumatlar alır;

3.3.29. hidrotexniki qurğuların təyinatı üzrə təhlükəsizlik bəyannamələrini öz səlahiyyətləri daxilində təsdiq edir;

3.3.30. ölkənin müdafiəsinin və təhlükəsizliyinin təmin edilməsi, əhalinin sağlamlığının, ətraf mühitin və tarixi-mədəni irsin, habelə başqa şəxslərin qanuni hüquqlarının və maraqlarının qorunması məqsədi ilə səlahiyyətləri daxilində su obyektlərindən və onların bir hissəsindən istifadəni məhdudlaşdırmaq, dayandırmaq və qadağan etmək üçün müvafiq təqdimatlar hazırlayır;

3.3.31. səlahiyyətləri daxilində su obyektlərindən balıqçılıq üçün istifadəni razılaşdırır, su tutarlarını və ya onların müəyyən hissələrini idman və həvəskar balıq ovu üçün ayırır;

3.3.32. səlahiyyətləri daxilində su obyektlərindən tullantı sularının axıdılması üçün istifadə edilməsinə razılıq verir və ya tullantı sularının su obyektlərinə axıdılmasını məhdudlaşdırır, dayandırır, qadağan edir;

3.3.33. qanunvericiliyə uyğun olaraq su mühafizə zonalarındakı torpaqların istifadəsinə razılıq verir və bu ərazidəki fəaliyyətə nəzarəti səlahiyyətləri daxilində həyata keçirir;

3.3.34. su obyektlərinin bərpası və mühafizəsi sahəsində bələdiyyələr və su istifadəçiləri ilə hövzə sazişləri bağlayır;

3.3.35. sanitariya, hidrotexniki və meliorasiya tədbirlərinin görülməsi halları istisna olmaqla, çaylarda, çay qollarında, meliorasiya və irriqasiya sistemlərində qalaqların yaradılmasının, su axımının qarşısının özbaşına kəsilməsinin, göllərdən və limanlardan su buraxılmasının qarşısını alır;

3.3.36. suların vəziyyətinə təsir edən müəssisələrin, qurğuların və digər obyektlərin tikiləcəyi yerləri ~~öz səlahiyyətləri daxilində~~ müəyyənləşdirir, onların tikinti layihələrinə rəy verir, obyektlərin istismara verilməsini razılaşdırır;[8]

3.3.37. respublika əhəmiyyətli və rayonlararası suvarma sistemləri üzrə sudan istifadəyə dair ümumsistem planlarını təsdiq edir;

3.3.38. xüsusi qorunan su obyektlərinin respublika, bölgə və yerli əhəmiyyətli xüsusi qorunan su obyektlərinə aid edilməsi barədə təkliflər hazırlayır;

3.3.39. müəyyən müddət üçün yerüstü su ehtiyatlarından istifadənin son həddini göstərən limitlər və kvotalar müəyyən edir, müqavilələr bağlayır, qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda yerüstü su ehtiyatlarından istifadəyə icazə verir;

3.3.40. qanunvericiliyə uyğun olaraq istismar müddətini başa vurmuş, iqtisadi baxımdan məqsədyönlü sayılmayan, təmiri və bərpası səmərəli hesab edilməyən əsas vəsaitləri balansdan silir;

3.3.41. sərhədboyu sularda meliorasiya və irriqasiya sistemləri və qurğularının yaradılması və onlardan istifadə edilməsi sahəsində beynəlxalq müqavilələrin hazırlanmasında iştirak edir;

3.3.42. yerli və xarici hüquqi şəxslərlə qanunvericiliklə müəyyən edilmiş qaydada müştərək (birgə) müəssisə yaradır;

3.3.43. dövlət büdcəsindən meliorasiya tədbirlərinə ayrılan vəsait hesabına Cəmiyyətin aparatının strukturunu, ştat cədvəlini və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla say tərkibini müəyyənləşdirib təsdiq edir;

3.3.44. səlahiyyətləri daxilində mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, bələdiyyələrdən, fiziki və hüququ şəxslərdən müəyyən olunmuş qaydada arayışlar və məlumatlar alır;

3.3.45. zəruri hallarda respublikanın müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədbirlər həyata keçirir;

3.3.46. səlahiyyətləri daxilində meliorasiya və irriqasiya sistemlərinin yaxşılaşdırılması və inkişafı üzrə layihələrin həyata keçirilməsinə texniki və maliyyə yardımının cəlb edilməsi üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;

3.3.47. Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilməyən digər fəaliyyət növlərini həyata keçirir.

3.4. Cəmiyyət bu Nizamnamə ilə nəzərdə tutulan vəzifə və funksiyalarını bilavasitə *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlər* vasitəsilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanı, ictimai təşkilatlar və digər hüquqi şəxslər ilə əlaqəli şəkildə həyata keçirir.

## 4. Cəmiyyətin nizamnamə kapitalı və əmlakı

4.1. Cəmiyyətin gəlirləri dövlət büdcəsindən, büdcədənkənar vəsaitdən, kreditlərdən, qrantlardan, xidmət və istehsaldan daxil olan, qanunvericiliklə qadağan olunmayan fəaliyyət növlərindən əldə edilən vəsaitlərdən ibarətdir.

4.2. Cəmiyyətin əmlakı əsas fondlardan, dövriyyə vəsaitlərindən və digər əmlakdan ibarətdir.

4.3. Cəmiyyətin əmlakının dəyəri onun balansında göstərilir.

4.4. Cəmiyyətin nizamnamə kapitalı 728428260 manatdır, onun səhmlərinin nominal dəyərindən təşkil olunur və nominal dəyəri 20 manat olan 36421413 ədəd adi səhmlərdən ibarətdir.

4.5. Cəmiyyətin əmlakı aşağıda göstərilən mənbələr hesabına təşkil olunur:

4.5.1. nizamnamə kapitalına daxil olan əmlak;

4.5.2. səhmdarın vəsaiti hesabına;

4.5.3. təsərrüfat fəaliyyətinin həyata keçirilməsindən daxil olan gəlirlər;

4.5.4. qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

4.6. Cəmiyyətin nizamnamə kapitalının artırılması və ya azaldılması Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

4.7. Cəmiyyətin əmlakına qoyulan maya puldan, qiymətli kağızlardan, başqa əmlakdan, əmlak hüquqlarından və pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

## 5. Cəmiyyətin strukturu

5.1. Cəmiyyət qarşısına qoyulan funksiya və vəzifələrini *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlər* vasitəsi ilə həyata keçirir.

*5.2. Cəmiyyət müvafiq qanunvericiliyə uyğun olaraq idarə, nümayəndəlik və filiallarını yarada və ləğv edə, törəmə cəmiyyətlərini yarada, yenidən təşkil və ləğv edə bilər.*

*5.3. Cəmiyyətin idarə, nümayəndəlik və filiallarının, habelə törəmə cəmiyyətlərinin rəhbərləri həmin idarə, nümayəndəlik və filialların, habelə törəmə cəmiyyətlərin məqsəd və funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.*[9]

5.4. Cəmiyyətin *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlər* bu Nizamnaməyə əməl etməli, öz fəaliyyətləri barədə Cəmiyyətə hesabat verməli, Cəmiyyət tərəfindən keçirilən tədbirlərdə və Cəmiyyət qarşısında duran vəzifələrin həllində iştirak etməli və qanunvericiliyə uyğun olaraq digər vəzifələri yerinə yetirməlidirlər.

## 6. *Cəmiyyətdə uçot, hesabat və nəzarət*[10]

6.1. Cəmiyyət mühasibat, maliyyə və statistik uçotu Azərbaycan Respublikasının qanunvericiliyinə və beynəlxalq standartlara uyğun olaraq aparır. Uçot Azərbaycan dilində aparılır. Cəmiyyət *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlərdə* bu uçotun qüvvədə olan qanunvericiliyə uyğun olaraq aparılmasına nəzarət edir.

6.2. Cəmiyyətin maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və dekabrın 31-də başa çatır. Növbəti maliyyə ili isə yanvarın 1-dən başlayır və dekabrın 31-dək olan dövrü əhatə edir.

6.3. Cəmiyyət illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını hamının tanış olması üçün hər il maliyyə ili bitdikdən sonra 4 aydan gec olmayan müddətdə qanunla müəyyən edilmiş hallarda və qaydada auditor rəyi ilə birlikdə dərc etməyə borcludur.[11]

6.4. Cəmiyyət onun *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlərin* maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasının qüvvədə olan qanunvericiliyə uyğun olaraq aparılmasını təmin edir.

*6.4-1. Cəmiyyətin İdarə Heyətinin sədri və ya üzvləri, habelə Cəmiyyətin struktur bölmələrinin (idarə, nümayəndəlik, filial və s.) rəhbərləri özlərinin, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.6-cı və 49-1.7-ci maddələri ilə müəyyən edilmiş qaydada təqdim etməlidirlər.*[12]

6.5. Cəmiyyətin bütün əməkdaşları onlara əmək fəaliyyəti ilə bağlı məlum olan kommersiya sirrini təşkil edən məlumatları gizli saxlamağa borcludurlar.

## *6-1. Cəmiyyətin ali idarəetmə orqanı*[13]

*6-1.1. Cəmiyyətin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır.*

*6-1.2. Cəmiyyətin səhmdarlarının ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş məsələlər "Meliorasiya və su təsərrüfatı sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 23 fevral tarixli 372 nömrəli Fərmanına uyğun olaraq həll edilir.*

**7. Cəmiyyətin icra orqanı**

7.1. İdarə Heyəti Cəmiyyətin kollegial icra orqanıdır.

7.2. İdarə Heyəti qanunvericiliklə və bu Nizamnamə ilə Cəmiyyətin digər idarəetmə orqanlarının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər istisna olmaqla, Cəmiyyətin idarə edilməsi ilə bağlı bütün məsələləri həll edir.

7.3. İdarə Heyətinin tərkibi 4 nəfərdən — sədr, onun birinci müavini və 2 müavindən ibarətdir.

7.4. İdarə Heyətinin işinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad edilən sədr rəhbərlik edir.

7.5. Sədrin bir birinci müavini və iki müavini Cəmiyyətin sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Baş naziri tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur.

7.6. İdarə Heyəti:

7.6.1. sədr tərəfindən yaradılmış komissiyalarla birlikdə meliorasiya və su təsərrüfatı sistemlərinin istismarı, inkişafı ilə bağlı məsələləri, *struktur bölmələrinin* fəaliyyətinin yekunlarını, daxili audit yoxlamalarının nəticələri barədə və ortaya çıxmış çatışmazlıqların aradan qaldırılmasını, habelə Cəmiyyətin illik maliyyə tələbatını, suyun paylanma rejimlərini və digər məsələləri müzakirə edir, müvafiq qərarlar qəbul edir;[14]

*7.6.1-1. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyati şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin (müstəqil auditorun rəyi əlavə olunmaqla) bağlanılması haqqında qərarın qəbul edilməsi üçün ümumi yığıncağa (Azərbaycan Respublikasının Nazirlər Kabinetinə) müraciət edir;*

*7.6.1-2. aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edir;*[15]

7.6.2. Cəmiyyətin aparatının işçilərinin vəzifə maaşlarını Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının işçilərinin vəzifə maaşı səviyyəsində müəyyən edir, işçilərinin vəzifə maaşlarını dövri olaraq Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında çalışan işçilərin vəzifə maaşlarının artım tempinə uyğunlaşdırır;

*7.6.2-1. Cəmiyyətin Nizamnaməsində, strukturunda, habelə nizamnamə kapitalında dəyişikliklər edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər verir;*[16]

*7.6.2-2. Cəmiyyətin inkişafı strategiyasının müəyyən edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər verir;*

*7.6.2-3. Cəmiyyətin illik hesabatlarının, mühasibat balanslarının, mənfəət və zərər hesablarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq təkliflər verir;*

*7.6.2-4. Cəmiyyətin fəaliyyətinin yaxşılaşdırılması məqsədi ilə idarə, nümayəndəlik və filialların yaradılması və ləğvi, törəmə cəmiyyətlərin yaradılması, yenidən təşkili və ləğvi barədə qərarlar qəbul edir və bu barədə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə məlumat verir;*

*7.6.2-5. Cəmiyyətin, onun idarə, nümayəndəlik və filiallarının, habelə törəmə cəmiyyətlərinin balansında olan əmlakın müstəqil qaydada (sistem daxilində) balansdan balansa, icarəyə və istifadəyə verilməsi, silinməsi (ləğvi) barədə qərarlar qəbul edir;*

7.6.3. dövlət büdcəsindən meliorasiya tədbirlərinə ayrılan vəsait hesabına Cəmiyyətin aparatının işçilərinin vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq Maliyyə Nazirliyi ilə razılaşdırılmış əmək haqqı fondu dairəsində həyata keçirir;

7.6.4. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

7.7. İdarə Heyətinin qərarları müvafiq protokollarla və bir qayda olaraq, sədrin əmri ilə rəsmiləşdirilir.

7.8. Cəmiyyətin İdarə Heyətinin qərarlarının qəbul edilməsində onun üzvləri arasında fikir ayrılığı yarandıqda, sədr öz qərarını həyata keçirir və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verir.

7.9. Meliorasiya və su təsərrüfatı sahəsində aparılan elmi tədqiqatların istiqamətləri üzrə təkliflərə baxmaq, müasir elmi nailiyyətlərin istehsalatda tətbiqi üzrə tövsiyələr hazırlamaq, dövlət əhəmiyyətli tikinti və yenidənqurma obyektlərinin layihələrinə baxmaq məqsədi ilə sədrin rəhbərliyi altında respublikanın yüksək ixtisaslı alim və mütəxəssislərini də cəlb etməklə Elmi-texniki Şura yaradılır.

## 8. Cəmiyyətin sədri

8.1. Cəmiyyətin sədri:

8.1.1. Cəmiyyətin fəaliyyətinə rəhbərliyi həyata keçirir;

8.1.2. müavinlər arasında iş bölgüsünü müəyyənləşdirir;

8.1.3. dövlət büdcəsindən meliorasiya tədbirlərinə ayrılan vəsait hesabına müəyyən olunmuş əməyin ödənilməsi fondu daxilində Cəmiyyətin ~~*idarə*~~ aparatının strukturunu, ştat cədvəlini və Maliyyə Nazirliyi ilə razılaşdırmaqla xərclər smetasını təsdiq edir;[17]

8.1.4. Cəmiyyətin *idarə, nümayəndəlik və filiallarının, habelə törəmə cəmiyyətlərinin* strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;[18]

8.1.5. Cəmiyyətin *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlərin* nizamnamələrini (əsasnamələrini) təsdiq edir;

8.1.6. Cəmiyyətin aparatının və *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlərin rəhbərlərini* vəzifəyə təyin edir və vəzifədən azad edir, onların barəsində

qanunvericiliklə müəyyən edilmiş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;[19]

8.1.7. Cəmiyyətin aparatının və *idarə, nümayəndəlik və filiallarının, habelə törəmə cəmiyyətlərinin* fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir, habelə normativ hüquqi aktların icrasını təşkil edir və yoxlayır; [20]

8.1.8. beynəlxalq danışıqlarda iştirak edir, meliorasiya və su təsərrüfatı sistemlərinin yaxşılaşdırılması məqsədi ilə beynəlxalq müqavilələrin bağlanması üçün danışıqlar aparır, onları imzalayır və imzalanmış müqavilələrin icrasını təmin edir;[21]

~~*8.1.9. Cəmiyyətin fəaliyyətinin yaxşılaşdırılması məqsədi ilə yeni qurumların yaradılması, yenidən təşkil olunması və ləğv edilməsi barədə sərəncam verir;*~~ [22]

8.1.10. Cəmiyyətin *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlərin* maliyyə təsərrüfat fəaliyyətinin auditinin və yoxlamaların keçirilməsi ilə bağlı qərarlar qəbul edir;

8.1.11. Cəmiyyətin əmlakı barədə qanunvericiliklə müəyyən edilmiş qaydada öz səlahiyyətləri daxilində sərəncam verir, istehsalat-təsərrüfat fəaliyyətini təmin etmək üçün hüquqi və fiziki şəxslərlə *bu Nizamnamənin 7.6.1-1-ci və 7.6.1-2-ci yarımbəndlərinin tələbləri nəzərə alınmaqla* müqavilələr bağlayır, etibarnamələr verir, xəzinə və banklarda hesablaşma hesabı və digər hesablar açır, vəsait yönəltmək hüquqlarından istifadə edir, daxili intizam qaydalarını müəyyən edir;[23]

8.1.12. ilin yekun maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı balansa baxılması və malların alınması, iş və xidmətlərin görülməsi üçün müsabiqələrin keçirilməsi üzrə komissiyalar yaradır;

8.1.13. Cəmiyyət adından etibarnaməsiz fəaliyyət göstərir, onun mənafelərini bütün dövlət orqanlarında, müəssisələrdə, idarələrdə və təşkilatlarda (o cümlədən beynəlxalq təşkilatlarda) müdafiə edir;

8.1.14. qanunvericiliyə müvafiq olaraq digər səlahiyyətləri həyata keçirir.

8.2. Cəmiyyətin sədri öz fəaliyyətində Azərbaycan Respublikasının normativ hüquqi aktlarını və bu Nizamnaməni rəhbər tutur.

8.3. Cəmiyyətin sədri Cəmiyyətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün məsuliyyət daşıyır.

8.4. Cəmiyyətin sədri iş yerində olmayanda və ya vəzifəsinin yerinə yetirilməsinə mane olan hallar meydana çıxdıqda, yaxud öz vəzifəsini yerinə yetirə bilmədikdə, onun səlahiyyətlərini birinci müavini həyata keçirir.

## 9. Daxili audit və maliyyə nəzarəti mexanizmi

9.1. Cəmiyyət sədrə tabe olan daxili audit sistemi təsis edir. Daxili audit və bu sistemin işini icra edən şəxslər öz fəaliyyətlərində Cəmiyyətin *struktur bölmələrindən* asılı deyildirlər və öz funksiyalarını icra edərkən müstəqil qiymət vermək, nəticələr çıxarmaq hüququna malikdirlər. [24]

9.2. Cəmiyyətin daxili auditinin əməkdaşları Cəmiyyətin bütün işçiləri üçün müəyyən edilmiş tələblərlə bərabər aşağıdakı əlavə tələblərə cavab verməlidirlər:

9.2.1. Azərbaycan Respublikasının qanunvericiliyi sahəsində və ekspertiza aparacaqları sahədə müvafiq biliklərə malik olmaq;

9.2.2. hüquq, iqtisadiyyat, yaxud mühasibat uçotu sahəsində ali təhsilli olmaq;

9.2.3. bu Nizamnamənin 9.2.2-ci yarımbəndində sadalanan müvafiq sahə üzrə azı beş illik iş stajına malik olmaq.

9.3. Daxili auditin aşağıdakı səlahiyyətləri vardır:

9.3.1. Cəmiyyətin, o cümlədən onun struktur bölmələrinin fəaliyyətinin Azərbaycan Respublikasının qanunvericiliyinə və Cəmiyyətin daxili qaydalarına uyğunluğunu yoxlamaq;

9.3.2. Cəmiyyətin istehsal və xidmət fəaliyyətinin, habelə maliyyə statusunun dəqiq qiymətləndirilməsi məqsədi ilə bütün sahələrdə aparılan xüsusi əməliyyatların mütəmadi auditini aparmaq;

9.3.3. daxili audit yoxlamalarının nəticələri haqqında, habelə ortaya çıxmış çatışmazlıqların aradan qaldırılması üçün təkliflər barədə Cəmiyyətin sədrinə məlumat vermək;

9.3.4. Azərbaycan Respublikasının qanunvericiliyi və bu Nizamnamə ilə nəzərdə tutulmuş digər səlahiyyətlər.

9.4. Cəmiyyətin bütün müvafiq bölmələri və əməkdaşları daxili auditi həyata keçirən əməkdaşların tələbi ilə zəruri olan sənədləri təqdim etməyə, onlara öz vəzifələrinin icrası üçün zəruri şəraiti yaratmağa borcludurlar.

## 10. Cəmiyyətin müstəqil (kənar) auditi

Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müstəqil (kənar) auditi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

## 11. Cəmiyyətin *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlər* ilə qarşılıqlı münasibətləri

11.1. Cəmiyyətin onun *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlər* ilə qarşılıqlı münasibətləri Azərbaycan Respublikasının normativ hüquqi aktlarına, bu Nizamnaməyə, habelə onların nizamnamə və əsasnamələrinə, Cəmiyyətin idarəetmə orqanının qərarına uyğun olaraq tənzimlənir.

11.2. Cəmiyyət *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlərə* icrası məcburi olan göstərişlər vermək və onlar tərəfindən Azərbaycan Respublikasının normativ hüquqi aktlarına, bu Nizamnaməyə, onların nizamnamə və əsasnamələrinə, Cəmiyyətin idarəetmə orqanının qərarlarına zidd qəbul edilmiş qərarları ləğv etmək hüququna malikdir. [25]

11.3. Cəmiyyətin onun *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətləri* ilə qarşılıqlı münasibətlərdə səlahiyyətləri aşağıdakılardır:

*11.3.1. mövcud normativ hüquqi aktlara uyğun olaraq, idarə, nümayəndəlik və filiallarının, habelə törəmə cəmiyyətlərinin balansında olan əmlakın müstəqil qaydada (sistem daxilində) balansdan balansa, hüquqi və fiziki şəxslərə icarəyə və istifadəyə verilməsinə, habelə*

*balansda əks olunmuş fondların silinməsinə (ləğvinə) müəyyən olunmuş qaydada razılıq vermək;*[26]

11.3.2. *idarə, nümayəndəlik və filiallarının, habelə törəmə cəmiyyətlərinin* ştat cədvəllərini və xərclər smetasını təsdiq etmək;[27]

11.3.3. *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlərin* təsərrüfat fəaliyyəti üzrə proqnoz göstəricilərini formalaşdırmaq, hesabatlarına nəzarət etmək, bu məsələlərə aid tövsiyələr vermək;

11.3.4. *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlərin* maliyyə-təsərrüfat fəaliyyətlərini təhlil və təftiş etmək;

11.3.5. *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlərin* fəaliyyətlərinin yekunlarına baxılmasını təmin etmək;

11.3.6. *idarə, nümayəndəlik və filiallar, habelə törəmə cəmiyyətlərdən* onların təqsiri üzündən Cəmiyyətə dəymiş zərərin əvəzini ödəməyi tələb etmək;

11.3.7. qanunvericilikdə və bu Nizamnamədə nəzərdə tutulmuş digər hüquqlar.

## 12. Cəmiyyətin yenidən təşkili və ləğvi

*Cəmiyyətin yenidən təşkili və ləğvi barədə qərarlar Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilir.* Cəmiyyətin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) və ləğvi Azərbaycan Respublikasının Mülki Məcəlləsi və digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.[28]

***Qeyd.*** *Bu Nizamnamədə dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.*[29]

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin
2006-cı il 17 iyun tarixli 149 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

